AMCHAM

AMERICAN CHAMBER OF COMMERCE IN AZERBAIJAN



# AMCHAM AZƏRBAYCAN BİZNES DAVRANIŞ KODEKSİ

Azərbaycanda Amerika Ticarət Palatası

Bakı - 2023

# AmCham Azərbaycan Biznes Davranış Kodeksi

## Missiyamız

Missiyamız Üzv Şirkətlərimizə yüksək keyfiyyətli xidmətlər göstərməklə, eləcə də Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üzrə iş aparmaqla onların biznes maraqlarını təşviq etməkdir.
Bu məqsədə nail olmaq üçün biz maraqlı tərəflərimizin şəffaf şəkildə qəbul etdiyi dayanıqlı dürüstlük mədəniyyəti və mühitini yaratmaq üçün AmCham Azərbaycan Biznes Davranış Kodeksinii tərtib etmişik.

## Bu Biznes Davranış Kodeksinə kim əməl etməlidir

AmCham Azərbaycanın Biznes Davranış Kodeksinə üzv şirkətlər, təchizatçılar, agentlər və AmCham Azərbaycanı təmsil edən və onun üçün işləyən hər kəs əməl etməlidir.

## Rüşvət və korrupsiyaya qarşı mübarizə (RKM)

Biz AmCham Azərbaycanda heç bir növ rüşvət və ya korrupsiya hadisəsinə dözümlülük nümayiş etdirmirik. Biznes üstünlüyü qazanmaq və ya əldə saxlamaq və ya ədalətsiz biznes üstünlüyü əldə etmək məqsədilə birbaşa və ya dolayı yolla hər hansı qiymətli maddi və sair nemətlərin təklif edilməsi, vəd edilməsi, verilməsi, istənilməsi, tələb edilməsi və ya qəbul edilməsi qadağandır.
Hər hansı qiymətli maddi və sair nemətə daxil ola bilər: hədiyyələr, yeməklər, səyahət/əyləncə, məşğulluq/stajkeçmə, xeyriyyə töhfələri və sponsorluqlar və eləcə də hər hansı dəyəri olan sadə vəd və ya zəmanət.
AmCham Azərbaycan rüşvətxorluq və korrupsiya ilə mübarizə haqqında bütün mövcud qanunlara, o cümlədən Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əməl etməlidir.

AmCham Azərbaycan aşağıdakı öhdəlikləri daşıyır:
1. Rüşvətxorluğun bütün formalarının qadağan edilməsi;
2. Ağlabatan daxili nəzarət mexanizmlərinin təmin edilməsi; və
3. Dəqiq uçot və qeydlərin aparılması.

## Maraqların toqquşması

Qərarlarımız obyektiv və ədalətli qiymətləndirmələrə əsaslanaraq hər hansı qeyri-münasib təsir ehtimalından uzaq olmalıdır.
Maraqların toqquşması halı hər hansı şəxsin maraqlarının birbaşa və ya dolayısı yolla təşkilatın maraqlarına müdaxilə etdiyi hal baş verdikdə və ya müdaxilə etməsi meydana çıxdıqda yaranır.

## Maraqların toqquşmasının yaranmasına aşağıdakı hallar səbəb ola bilər:

- Faktiki və ya potensial müştəri, rəqib, təchizatçı və ya podratçı tərəfindən işə qəbul olunmaq (siz və ya yaxın ailə üzvünüz).
- Ailə üzvlərini və ya yaxın qohumları işə götürmək və ya onlara nəzarət etmək.
- Başqa bir təşkilatda idarə heyətinin üzvü kimi fəaliyyət göstərmək.
- Müştəri, rəqib, təchizatçı və ya podratçıya borcu olmaq və ya onlar ilə münasibətdə maliyyə marağına malik olmaq.
- Hər hansı bir şirkət əməliyyatında şəxsi, maliyyə marağının və ya potensial şəxsi mənfəətin olması.

Əgər maliyyə və ya şəxsi fəaliyyətləriniz AmCham Azərbaycan qarşısında sədaqətinizi sarsıtmaq potensialına malik olarsa, bu barədə açıqlama verməyə borclusunuz.
Hər hansı maraq toqquşması barədə AmCham Azərbaycanın Direktorlar Şurasına məlumat verilməlidir.
İş yerindəki heç bir fəaliyyət təşkilatımızın nüfuzuna və ya təmiz adına ləkə gətirməməlidir.
Maraqların toqquşması mütləq şəkildə pozuntu hesab edilmir, lakin maraqların toqquşması haqqında məlumatın dərhal açıqlanmaması hər zaman pozuntu hesab edilir.

## Hədiyyələr və əyləncələr

Hədiyyələr və əyləncələr işgüzar münasibətləri gücləndirməyin ümumi və məqbul üsuludur, lakin onlar həm də ədalətsiz biznes fəaliyyətləri mənzərəsi yarada və ya hətta rüşvət hesab edilə bilər. Hədiyyələrin alınması və verilməsi, əyləncəli tədbirlərin təşkili və onlarda iştiraka razılıq biznes fəaliyyətində qərar qəbul etmək sərbəstliyinə təsir göstərə bilər.
Biz qanunları, qaydaları və ya siyasətləri pozacaq ədalətsiz biznes güzəşti tərkibi yarada və ya ağlabatan hesab edilə bilən bu cür imtiyazları nə verməməli, nə də qəbul etməməliyik.

Bütün Hədiyyələr və Əyləncələr (verilən və qəbul edilən) aşağıdakı kimi olmalıdır:
1. Ağlabatan (ümumi sənaye və yerli standartlara əsasən ekstravaqant və ya qeyri-münasib olmamalıdır).
2. Münasib olmalıdır (böyüklər üçün əyləncədən ibrarət olmamalıdır).
3. Bona-fide biznes məqsədi üçün olmalıdır.
4. Nadir hallarda baş verməlidir.
5. Qeyri-münasib görünüş yaratmamalıdır (məsələn, rüşvət və ya ədalətsiz biznes üstünlükləri əldə etmək cəhdi kimi təfsir edilməməlidir).
6. Alıcının təşkilatının siyasətlərinə və ölkənin qanunlarına uyğun olmalıdır.
7. Nağdsız formada həyata keçirilməlidir.

## Kiber təhlükəsizlik və məlumatların məxfiliyi

Biz hər bir şəxsin məxfilik hüquqlarına hörmət edir və üzvlərin, işçilərin və başqalarının şəxsi məlumatlarından düzgün şəkildə və qanuni biznes məqsədləri üçün istifadə olunacağını təmin etmək zərurətini qəbul edirik.
Biz məlumatların məxfiliyi və məlumat təhlükəsizliyinə dair mövcud qanunlara əməl etməyə sadiqik.
Biz yalnız zəruri olan şəxsi məlumatları əldə edir və saxlayır və şəxsi məlumatların məxfiliyini və toxunulmazlığını təmin etmək üçün lazımi təhlükəsizlik tədbirləri həyata keçiririk.
İşçilərimiz şəxsi məlumatların əldə edilməsi və işlənilməsi fəaliyyətlərinin qanuniliyini təmin etmək üçün qanuni tələblərə riayət etməli, uyğun təcrübələri tətbiq etməli və müvafiq prosedurlara əməl etməlidir.
Xidməti məlumatlara səlahiyyəti olmayan şəxslərə açıqlandıqda təşkilatlara və ya onun müştərilərinə və biznes tərəfdaşlarına zərər verə biləcək və ictimaiyyət üçün açıq olmayan bütün məlumatlar daxildir. Bütün işçilər bu qəbildən olan hər hansı bir məlumatı məxfi hesab etməlidirlər.
İnformasiya təhlükəsizliyini təmin edən hər bir qaydaya hər zaman əməl edilməlidir.

## Əqli mülkiyyət

Biz başqalarının mülkiyyət hüquqlarına hörmət edirik. Biz kommersiya sirrini və ya digər mülkiyyət və ya məxfi məlumatları qeyri-münasib üsullarla əldə etməməli və ya əldə etməyə çalışmamalıyıq.
AmCham Azərbaycanda biz başqalarının əqli mülkiyyət hüquqlarını qiymətləndirir və hörmət edir və üzvlərimizdən, əməkdaşlarımızdan və maraqlı tərəflərdən də eyni münasibətin göstərilməsini gözləyirik. Əqli mülkiyyət hüquqlarını qorumaq öhdəliyimiz məsuliyyətli təşkilat kimi dürüstlüyümüz və nüfuzumuz üçün əsas amildir.

- Biz başqalarına məxsus olan əqli mülkiyyət öbyektlərindən (patentlər, müəllif hüquqları, ticarət nişanları və ticarət sirləri daxil olmaqla) müvafiq icazə olmadan istifadə etməməli, onları çoxaltmamalı, yaymamalı və ya paylaşmamalıyıq.
- AmCham Azərbaycanın proqram təminatları, dizaynları, ticarət nişanları və məxfi məlumatları əhatə edən, lakin bunlarla məhdudlaşmayaraq, əqli mülkiyyət obyektlərini qorumaq və mühafizə etmək vəzifə borcumuzdur.
- AmCham Azərbaycanın əqli mülkiyyət obyektlərinin icazəsiz paylaşılması, yayılması və ya istifadəsi qəti qadağandır və bu cür hallar əmək və ya müqavilə münasibətlərinə xitam verilməsi daxil olmaqla, intizam tədbirləri ilə nəticələnə bilər.

Bu qaydalara riayət etməklə biz əqli mülkiyyət hüquqlarına hörmət etmək, innovasiyaları təşviq etmək və üzvlərimizin, maraqlı tərəflərimizin, müştərilərimizin və daha geniş ictimaiyyətin etibarını qorumaq öhdəliyimizi dəstəkləyirik.

## Satınalma fəaliyyətləri

Azərbaycanda biznes fəaliyyəti göstərən müəssisələrin məhsul və xidmətlərin satınalma üsulları Azərbaycanda biznes mühitinin yaxşılaşdırılmasına əsaslı təsir göstərə bilər. Buna da müvafiq olaraq, hazırkı Kodeks üzrə öhdəliklərin pozulmaması üçün biznes partnyorlarının ehtiyatla seçilməsi vacib şərtdir.
Biz satınalma fəaliyyətlərimizdə dürüstlük, şəffaflıq və ədalətliliyin ən yüksək standartlarını qorumaq öhdəliyinə sadiqik. Etik qaydalara riayət etməklə satınalma üzrə öhdəliyimiz bizim nüfuzumuz və təchizatçılar və digər maraqlı tərəflərlə münasibətlərimiz üçün vacib şərtdir.

Buna görə də biz:

- Bütün satınalma fəaliyyətlərini ədalətli, şəffaf və rəqabətli şəkildə həyata keçirməli, bütün təsdiq olunmuş təchizatçılara biznes fəaliyyəti aparan zaman rəqabətə bərabər imkanlar yaratmalıyıq.
- Satınalma qərarlarını keyfiyyət, xərc, icra və dayanıqlıq kimi obyektiv meyarlar əsasında qəbul etməliyik.
- Satınalma prosesimizin dürüstlüyünü poza biləcək maraqların toqquşmasından çəkinməliyik.
- Təchizatçılarımızla uzunmüddətli, qarşılıqlı faydalı əlaqələr qurmağa, ədaləti və etibarlılığı təşviq etməyə çalışmaıyıq.

## Sağlamlıq, təhlükəsizlik texnikası, mühafizə və ətraf mühitin qorunması

Biz biznes fəaliyyətimizi insanlara zərər vermədən və ətraf mühitə hörmətlə yanaşacaq şəkildə aparmalıyıq.
Sağlam işçilər və təhlükəsiz və mühafizə olunan iş yerləri məhsuldarlığın artmasına aparan amillərdir. Ətraf mühitə dəyən zərərin minimuma endirilməsi isə AmCham Azərbaycanın korporativ sosial məsuliyyətinin vacib bir hissəsidir. Təhlükəsiz və mühafizə olunan iş yerlərinin təmin edilməsi, təbii sərvətlərdən istifadə edərkən məsuliyyətli davranma və tullantıların azaldılması üzvlərin Azərbaycanda biznes mühitinin yaxşılaşdırılmasına kömək edə biləcəyi yardım yollarıdır.
Buna görə də AmCham Azərbaycandanın üzvləri apardıqları biznes fəaliyyətlərində öz işçilərinin və başqalarının sağlamlığı, təhlükəsizliyi və mühafizəsi ilə bağlı məsələlərə başlıca əhəmiyyət verməlidirlər.

Bununla əlaqədar digər öhdəliklərimizə aşağıdakılar daxildir:

- Fəaliyyətimizlə bağlı ətraf mühitlə təsiri minimuma endirmək və qüvvədə olan bütün ekoloji qanun və qaydalara əməl etmək.
- Tullantıları azaltmaq, təbii sərvətlərə qənaət etmək və dayanıqlı təcrübələrdən yararlanmağa dair səylərimizin biznes fəaliyyətimizin bütün aspektlərində təşviq olunması.
- Təhlükəsizlik texnikası standartlarına cavab verən və ya onlardan üstün hesab edilən məhsul və xidmətləri təqdim etmək, üzvlərimizin, maraqlı tərəflərin və ictimaiyyətin rifahını təmin etmək.

Bu prinsiplərə riayət etməklə biz bütün maraqlı tərəflərin inamını və etimadını qorumaq yolu ilə əməkdaşlarımızın, üzvlərimizin və ətraf mühitin sağlamlığını və təhlükəsizliyini qorumaq öhdəliyimizi nümayiş etdiririk.

## Hökumətlə münasibətlər

AmCham Azərbaycanda biz dövlət qurumları, vəzifəli şəxslər və siyasi fəaliyyətlərlə qarşılıqlı əlaqələrimizi maksimum dürüstlük, şəffaflıq və uyğunluq şəraitində həyata keçirmək öhdəliyinə sadiqik. Hökumətlə münasibətlərlə əlaqədar fəaliyyətimizi həyata keçirərkən etik normaları və qanunvericiliyə əməletmə prinsiplərini rəhbər tuturuq.

Dövlət orqanları ilə qarşılıqlı əlaqələrimiz zamanı:

- Biz lobbiçilik, siyasi töhfələr və dövlət rəsmiləri ilə qarşılıqlı əlaqə ilə bağlı bütün qüvvədə olan qanunlara, qaydalara və normalara əməl etməliyik.
- Biz saxta və ya anlaşılmaz bəyanatlar verməməli və dövlətin qəbul etdiyi qərarlara çaşdırıcı vasitələrlə əsassız şəkildə təsir göstərməyə cəhd etməməliyik.

Bu qaydalara riayət etməklə biz dövlət qurumları və vəzifəli şəxslərlə bütün qarşılıqlı əlaqələrimizdə şəffaflığı, hesabatlılığı və ədalətliliyi təmin edən etik hökumət münasibətləri təcrübələrinə sadiqliyimizi dəstəkləməliyik.

## İş yerində ayrıseçkilik və təqiblər/təhqirlər

AmCham Azərbaycan inklüziv, hörmətli və ayrı-seçkilikdən və təqiblərdən/təhqirlərdən uzaq olan bir mühiti təşviq edir.
Biz irqindən, cinsi mənsubiyyətindən, cinsi oriyentasiyasından, dinindən, milliyyətindən, əlillik vəziyyətindən və ya qanunla qorunan hər hansı digər vəziyyətindən asılı olmayaraq hər bir şəxsə ləyaqətlə yanaşılmasına və hamı üçün bərabər imkanların təmin edilməsinə inanırıq.

- AmCham Azərbaycanın üzvləri milliyyət, irq, din, yaş, rəng, cins, qüsurluq və ya hər hansı ayrıseçkilik amlili (qanunla nəzərdə tutula bilən hallar istisna olmaqla) əsasında olan təqiblərin/təhqirlərin və ayrıseçkiliyin kökünü kəsməyə səy göstərməlidirlər.
- Şifahi, fiziki, əyani və ya yazılı formada olan hər hansı bir təqib/təhqir də daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, hər hansı digər formada olan təqib/təhqir qəbuledilməzdir. Buraya AmCham Azərbaycan ilə əlaqəli işçilər, üzvlər, təchizatçılar və ya hər hansı başqaları tərəfindən təqiblər/təhqirlər daxildir.
- Təqiblərlə/təhqirlərlə üzləşmiş və ya bu cür halların şahidi olmuş üzvlərimiz, maraqlı tərəflərimiz və əməkdaşlarımızdan bu barədə AmCham Azərbaycanın İdarə Heyətinə dərhal məlumat verməк rica olunur.

Davranış Kodeksinin hazırkı İş yerində ayrıseçkilik və təqiblər/təhqirlər bölməsinin tələblərinin pozulması əmək və ya müqavilə münasibətlərinə xitam verilməsi də daxil olmaqla intizam tənbehi tədbirləri, eləcə də tətbiq/təhqir halı baş verərsə, potensial hüquqi tədbirlərin görülməsi ilə nəticələnə bilər.
Bu prinsipləri dəstəkləməklə, biz inklüziv və qarşılıqlı hörmət mədəniyyətini inkişaf etdirərək hər bir şəxsin təqdir edildiyi, qiymətləndirildiyi və əlindən gələni etmək səlahiyyətinin verildiyi bir iş mühiti yaradırıq.

AMCHAM
AMERICAN CHAMBER OF
COMMERCE IN AZERBAIJAN

Nizami küçəsi 90 A, Landmark III
Bakı, AZ1010
Tel.: +994 12 497 13 33
Faks: +994 12 497 10 91
chamber@amchamaz.org
www.amcham.az